Azərbaycan Texniki Universiteti

Bildiririk ki, 8-10 dekabr 2021-ci il tarixlərində Azərbaycan Texniki Universitetində "Təhlükəsiz infotelekommunikasiya sistemləri: nəzəriyyədən tətbiqə" adlı beynəlxalq elmi-praktiki konfransın keçirilməsi nəzərdə tutulmuşdur.

Böyük məmnuniyyətlə Sizi bu konfransa dəvət edirik.

Konfransın bölmələri:

1. Rəqəmsal cəmiyyətdə elektron hökumət və infotelekommunikasiya xidmətləri
2. Yeni informasiya texnologiyaları və kibertəhlükəsizlik
3. Rəqəmsal dövlət və rəqəmsal iqtisadiyyat
4. Yeni idarəetmə modeli: Kiberfiziki sistemlərin əsasları, texnologiyaları və tətbiq sahələri.

MƏQALƏLƏRİN KONFRANSA TƏQDİM OLUNMASI VƏ TƏRTİBATINA DAİR TƏLƏBLƏR

1. Məqalə müəllifləri tezislərini göndərən zaman mütləq aid olduğu konfrans bölməsini qeyd etməlidir.
2. Məqalə www.aztuconference.aztu.edu.az səhifəsində qeydiyyatdan keçməklə daxil olunur.
3. Məqalə bir sütunlu mətn formatında təqdim edilməli və 3 - 6 səhifə həcmində olmalı və orijinallıgı təmin edilməlidir.
4. Məqalə rus və ingilis dillərindən birində təqdim olunmalıdır. Məqalənin əvvəlində 2 dildə (məqalənin tərtib edildiyi və digər konfrans dilində) xülasə (500 söz) və açar sözlər (4-5 sayda) verilməlidir.
5. Məqalə MS Word proqramında A4 formatında (sol və sağ – 2 sm, yuxarı və aşağı – 2,5 sm), Times New Roman şrifti ilə 12 pt ölçüdə, 1,0 sətirlərarası intervalla və mətndaxili yazıda abzas 1 sm buraxmaqla eninə hazırlanmalıdır.
6. Məqalə aşağıdakı ardıcıllıqla hazırlanmalıdır: məqalənin adı – ortada, böyük hərflərlə, qalın şriftlə, sonda 6 pt interval, müəllif(lər)in tam adı – ortada; müəllif(lər)in iş yeri, şəhər və ölkə –ortada, sonda 6 pt interval (əgər müəlliflər müxtəlif təşkilatları təmsil edirlərsə, müəllifin və təşkilatın adı yuxarı indekslə nömrələnir), e-mail ünvanı.
7. Ədəbiyyat siyahısı: hər bir istinad olunan mənbənin adı tərcümə olunmadan, məqalədə istifadə olunma ardıcıllığına uyğun olaraq nömrələnir.

Məqalədə cədvəl və şəkillər nömrələnir: cədvəl – cədvəlin yuxarısında, sağdan (məs., Cədvəl 1), şəkil – şəklin altında, ortadan (məs., Şəkil 1) və mətn hissədən (yuxarıdan və aşağıdan) 1 boş sətir buraxmaqla göstərilir.

9. Riyazi ifadələr MS Word proqramının düstur redaktoru (Equation) ilə tərtib olunur. Yalnız mətndə istifadə olunan düsturlar nömrələnir. Düstur sətrin ortasında, nömrəsi isə sağda mötərizədə yazılır.
10. Konfransa məqalə göndərildikdə müəlliflər haqqında məlumat: müəllifin tam adı (soyadı,adı,atasının adı), elmi dərəcəsi, elmi adı, iş yeri, vəzifəsi, telefon nömrəsi, məqalənin adı, konfransın bölmə nömrəsi və adı elektron məktubda təqdim olunur.
11. Antiplaqiat proqramından kecməyən məqalələr qəbul olunmur.

KONFRANSIN QRAFİKİ

Konfransın işi 08-10 dekabr 2021-ci il tarixlərində plenar və bölmə iclaslarında rus və ingilis dillərində aparılacaqdır.

Konfransın keçirildiyi ünvan: AZ1073, Bakı ş., H.Cavid pr. 25, Azərbaycan Texniki Universiteti.

Əlaqə:

Mərziyyə Ağayeva - Azərbaycan Texniki Universitetinin Tədqiqat və inkişaf şöbəsinin müdiri.

www.aztu.edu.az

E-mail: marziya.aghayeva@aztu.edu.az

Tel: (+994 12) 538-94-16

Fax: (+994 12) 538-32-80